# SÖZƏ SEVDALI  ŞAİR - SÖHRAB TAHİR

***İki bölünməkdən elə qorxmuşam,***
***Çöpü də ikiyə bölmürəm daha...***



**Bizim nəsil Söhrab Tahiri həmişə xeyirxah, nəcib, sözübütöv cəfakeş mərd və mübariz, xırda hislərdən uzaq görmüşdür. Bizim gözümüzdə S.Tahir inqilabçı, döyüşkən Cənubi Azərbaycan xalqının timsalıdır. Uca boylu, iti baxışları, şimşək gülüşləri ilə Söhrab Tahir Cənubi Azərbaycan torpağının bir parçasıdır. Güney Azərbaycanda sərhədsiz, maneəsiz addımlayan, Savalandan qopan bir qaya kimi gəzən, bütün qapıları ərklə açan, bütün evlərdə intizarla gözlənilən, varlığında işıq, inam, qələbə gəzdirən, özü demiş, Azər Azər babadır!**

Azərbaycanın xalq şairi, nasiri, publisisti Tahiri Söhrab (Söhrab Tahir) Əbülfəz oglu 6 avqust 1926-cı ildə İranın Astara şəhərərində sənətkar ailəsində anadan olmuşdur. Şair “Səadət” və “Şapur” orta məktəblərində 9-cu sinfədək təhsil almışdır. Lakin ailənin maddi imkanları aşağı olduğuna görə şair təhsilini davam etdirə bilməmiş, atası ilə birgə “İran İngilis neft şirkəti” ndə işləməyə məcbur olmuşdur. Sovet ordusunun İrana yeridilməsindən sonra, Söhrab Tahir xalq hərəkatında aktiv yer almışdır. 1946-cı ildə Söhrab Tahir təhsil almaq üçün Bakıya gələrək Bakı Tibb İnsititunun stomatoloq və feldşerlik fakultəsində təhsil alır. O, 1952-1957-ci illərdə ADU-nun filologiya fakultəsində təhsilini davam etdirir.

S.Tahir 1959-1961-ci illərdə isə Moskvada Maksim Qorki Adına Ali Ədəbiyyat kurslarında müdavim olmuşdur. 1962-1966-cı illərdə ADF-in Bakı komitəsində birinci katib,“Azərbaycan” qəzeti və jurnalı redaksiyalarında bədii şöbələrdə müdir, “Səhər” ədəbi-tarixi jurnalında isə redaktor müavini, 1984-cü ildən isə “Azərbaycan” jurnalında redaktor vəzifəsinə işləmişdir. Azərbaycan Yazıçılar Birliyi idarə heyətinin, “literaturnıy Azerbaydjan” jurnalı redaksiya heyətinin, “Yazıçı” nəşriyyatının bədii şurasının, Azərbaycan Ədəbiyyat Fondu idarə heyətinin pleniumunun üzvü, Azərbaycan Yazıçılar Birliyi şeir şurasının sədri (1986-1991) olmuşdur.

1991-ci ildə Bədii ədəbiyyatı təbliğat birosu idarə heyətinin sədri təyin edilmişdir. İnqilabi, ədəbi içtimai fəaliyyətinə görə Təbrizdə “21Azər” medalı və bir sıra medallarla, Azərbaycan Ali Soveti Rəyasət heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 23 may 1998-ci il tarixli, 709 nömrəli Fərmanı ilə ona “Xalq şairi” fəxri adı verilmişdir.

2006-cı ildə isə S.Tahir Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə “Şöhrət” ordeninə layiq görülmüşdür. 2010-cu ildə Rusiya Yazıçılar ittifaqı və onun Moskva şəhər təşkilatı nəznində fəaliyyət göstərən Yazıçı-tərcüməçilər ittifaqının qərarı ilə Beynəlxalq V.V. Mayakovski ordeni ilə təltif edilmişdir. Onun kitablarından, “Qırılan zəncirlər” (1965), “Mən səni görmüşəm” (1965), “Burdan bir atlı keçdi” (1972), “Azad qardaşım var” (1973), “Mənim yolum (1975)”, “Döyüş lövhələri” (1980), “Ölümdən güclü həyatdan uca (1981)”, “Qonşu qızın məktubları” (1985), “Vətənlə sevgi arasında” (1986), “İki dəfə yox olmuş adam” (1988), “Əmanət” (1991), “Seçilmiş əsərləri” (2005), “Ata” (2009) çox cildli kitabı və s. nəşr olunmuşdur.

Ümumiyyətlə, şairin 50-dən çox kitabı Bakıda, Moskvada, Berlində, Tehranda, Təbrizdə işıq üzü görüb. AMEA Şərqşunaslıq İnstitunun böyük elmi işçisidir.

1993-cü il mart ayından Yeni Azərbaycan Partiyasının üzvüdür. S.Tahir 1996-cı ildən Azərbaycan Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının üzvü, Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin prezidenti, 2002-ci ildən isə Azərbaycan İçtimai-Siyasi Universitetinin müəllimi olmuşdur.

Xalq şairi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Söhrab Əbülfəz oğlu Tahiri 2016-cı il mayın 4-də ömrünün 90-cı ilində vəfat etmişdir.

Çağdaş cənubi Azərbaycan şeirinin bayraqdarlarından biri olan S.Tahir dünyanın döyüşkən, inqilabi poeziyasının, ömrü mühacirətdə keçmiş qüdrətli nümayəndələri sırasında dayanır. Güneyli-Qüzeyli Azərbaycanın ədəbi ənənələrinin müştərək özülü üzərində yüksələn şairin yaradıcılığı poetik mübarizə yolu kimi doğma vətəndən didərgin düşmüş yüz minlərlə soydaşın acı, nisgilli, ömürlüyüdür. S.Tahirin kitablar toplusunda şairin vətəndaşlıq, içtimai ruhlu şeirləri cəmlənmişdir. Güney Azərbaycanın taleyindən doğan mübariz əhvallı həmin şeirlərlə yanaşı müxtəlif mövzulu poetik parçaların da yer aldığı kitablarda müəllifin ikili taleyindən gələn bir mövzu əlvanlığı, sevinclə göz yaşının görüşlə ayrılığın, xoşbəxtliklə ömürlük dərdin sıx-sıx qovuşması, bir-birini təmizləməsi və tamamlaması var... S.Tahir sözləri o qədər işıqlıdır ki... O qədər işıqlı ki, bu işıqlı sözlərin hərəkəti, cazibəsi, saflığı onun yazdığı hər şeyə haqq qazandırır.

XX əsrin poetik kəhkəşanında Azərbaycan azadlığının romantikasından şehlənmiş çiçək misralar gecənin qaranlığında yanan ulduzlar kimi görünür. Bu görüntüdə hər misrası Azərbaycan istiqlalı, milli mədəniyyət mücadiləsi, haqq gerçəkliyi uğrunda mübarizədə döyüşən, vuruşan S.Tahir poeziyasının da öz parlaqlığı var. O, Azərbaycan azadlığı mübarizəsinə gənclik illərindən-ömrünün ən xoş, saf, təmiz, ülvi çağlarında, dünyanın minbir nəfsindən uzaq, qaynar həyat eşqi ilə dolu bir zamanında atılıb. Gənclik illərinin ilk sevgisi Azərbaycanın istiqlal mübarizəsi olub. Bu eşqin oduna böyük Azərbaycanın-ikiyə bölünmüş Azərbaycanın o tayından bu tayına pənahlanıb. Vətən eşqi ilə 18 yaşında yola çıxan Söhrab Tahir 90 il mənalı və eyni zamanda enişli-yoxuşlu ömür sürüb. 90 yaşında daha mübariz, daha ötkəm, daha inadkar olub. Şairin əbədi vətən sevgisinə, bağrı qan Vətəninə olan eşqinə əlmi yetirmək olar? Söhrab Tahirin şeirləri uca-uca dağlar başından aşıb, nurlu dərələr boyunca yayılıb, milyonlarla ürəklərə yol tapıb.

Əziz Vətən, doğma diyar,
Vuruşuram sinəndəki
Qan yerini silənədək.
Vuruşuram azadlığım
Başım üstə gələnədək.

Şair əks-sədadır. O, həyatın bütün səslərinə, bütün çağırışlarına cavab verməlidir. S.Tahir əsl şair idi. Azərbaycan öz böyük oğlu üçün daim fəxr və qürur hissi keçirir. Şair təkcə düşmənə qarşı amansız deyildir. O, qorxaq və mühavizəkar olan bütün şəxsləri öz odlu şeirlərinin hədəfinə qoyur.

S.Tahir elə sənətkarlardandır ki, onların həyat yolu yaradıcılıq yolu qədər, yaradıcılıq yolu isə həyat yolu qədər maraqlı və zəngin olur. Həkim, filoloq, şair, içtimai xadim, azadlıq təşnəsi kimi müxtəlif adlar qazanmış, vətəndaşlıq mövqeyi və özünəməxsus poetik dünyası ilə seçilən S. Tahir ana vətəninin ürəyində doğulmuş, diləyində həmişə azadlıq bəsləmiş və bu yolda qılıncını ovxarlı saxlayan qüdrətli söz ustasıdır...



Azadlığı Savalanın zirvəsində görən və bu ucalığa çatmaq üçün "dərələri xurcun kimi çiyninə aşırıb, qayalardan atılaraq", "quzu olub daşlarını yalayaram duz kimi" deyə üzünü dağlara tutub söylədiyi şeirlərdəki məqama fikir verin:

Qurban olum sənin daim uçuran yağışına, doluna.
Qurban sənin dağ yolunu səngər etmiş oğluna,
Gir qoluma, daha çıxaq böyük dünya yoluna,
Dayan, dayan. Ey əcdadım, qoy mən girim qoluna
Savalanım, Savalan!..

Gözəl günlər uğrunda ömrünü odlara atan və indi sanki yer üzünün gəzəri Savalanına çevrilən S.Tahir elə təvazökar, mənəviyyatı zəngin bir şəxsiyyətdir ki, 90 baharlı bir arzman çinarın haqqında bəlkə də yetərincə yazılmayıb. Halbuki həm şəxsiyyət kimi, həm də yaradıcılıq ləyaqətinə görə Söhrab Tahir yalnız Azərbaycan ədəbiyyatının deyil, dünya poeziyasının qüdrətli nümayəndələrindəndir.

Onun haqqında yazılmış tədqiqatların birində deyilir ki, S.Tahir yaradıcılığı xalqın mənəvi, ədəbi ruhi birliyini yaradan ən güclü qüvvələrdən, aramızdakı ən möhtəşəm körpülərdən biridir. S.Tahir Cənubi Azərbaycan da milli azadlıq yolunda çarpışan, mübarizə aparan hürriyyət aşiqidir. Lakin bir çox cənublu soydaşlarımız kimi onun da taleyi dövrün, zamanın haqsızlıqlarına tuş gəlmişdir. Apardığı haqq işinin bəxş etdiyi "ərməğan" bu oldu ki, döğulduğu yurddan, anasından, əzizlərindən uşaqlığının minbir xatirəsini yaşadan yerlərdən ayrı düşdü. Şehli gəncliyindən bu günə-Savalanmış ömrünə kimi, özü demişkən, iki həyat yaşadı.

Mənim qollarımı iynə-sap edin
Tikin Astaranı biri-birinə.
Çayları, yolları iynə-sap edin
Tikin Culfaları biri-birinə.

S.Tahir şeirləri Azərbaycan poeziyasında bir mənəvi səngər qurdu. Bu səngərdə döyüşənlərin birinci vəzifəsi ürəklərdə, beyinlərdə hürriyyət adlanan bir səadətin məhəbbət toxumunu səpmək idi. Qəlbinin diktəsi ilə qələmini məhz bu istiqamətə yönəldib poeziyamızın sükanını məharətlə azadlığa, bu yolda çarpışmalara yönəldən S.Tahir bütün bu illər ərzində öz istəyinə bir bəndlik də olsa, xəyanət etmədi.

Bəzən poeziyamızın dünəninə boylananda fikirləşirsən ki, yazarlarımız od püskürən misraları, insanın ruhunu azadlığa-bəxtiyarlığa çəkən nidaları yazmasa idilər, bəlkə də poeziyamız sakit görünərdi, lal görünərdi. İndi həmin şeirləri oxuduqca, qürurlandığımız ideyaların, arzuların əzəməti və dəyəri önündə baş əyməli oluruq. Gününü qələmsiz, yazı masasız keçirməyən S.Tahir çağdaş qələm sahiblərindən-bəlkə də, ən məhsuldarlarından biri idi.

Dünyada bütün itkilərə dözmək, ağır dərdlərə sinə gərmək, tənha yaşamaq mümkündür. Ancaq vətənsizlik, doğulduğun yerdən ayrı düşmək ölümdən də betərdir. S.Tahir bu ağır yükü, bu ikiyə bölünmüş vətən dərdini ömür boyu çiyinlərində və ən əsası da qəlbində daşıdı. S.Tahir min səadətin içində belə vətən sarıdan nisgillidir. İkiyə bölünmək, vətən həsrəti qəlbindən süzülüb yazılarına töküldü.

Mənalı ömür yolu, dəyərli yaradıcılığı ilə həm qələm dostlarının, həm də oxucuların dərin sevgisini qazanmış Söhrab Tahir min səadətin içində belə vətən sarıdan nisgillidir, ən bəxtəvər çağında da kövrəkdir, bir həzin himə bənddir:

Öləndə kəfənim ikiqat olsun,
Mən həm o tayınam, həm də bu tayın.

Qoy bütün dünyaya belə yayılsın
Öləndən sonra da birlik harayım.

Şairin Vətən məhəbbətini əks etdirən "Ərdəbil", "Təbrizim", "Savalanım", "Ərk qalası", "Mərənd" və s. şeirlərində yurd sevgisinin yaratdığı bir sıra məqamları görür, müəllifin vətəndaşlıq hislərinin qədərsizliyinə, əbədiliyinə şahid olursan. Şeirlərindən çəkdiyimiz ayrı-ayrı ləçəklərdəki fikir duyumu çox düşündürücüdür.

Xalqım, sənin üzərinə
Qanlı qılınc sıyıranlar,
Bir milləti parçalayıb
Neçə yerə ayıranlar,
Səni təhqir edə-edə
Bu dünyada ucaldımı
Bu təhqirlə sənin, xalqım,
Böyüklüyün azaldımı.

Hərdən mənə elə gəlir ki, S.Tahir ulu Savalandan qopan bir qaya parçasıdır. Varlığında bütöv məmləkətimizin ağrı-acılarını gəzdirməkdən sərtləşib. Müəllifin ürək qanı ilə yazdığı şeirləri hərdən bayraq kimi başımızın üstündə dalğalandırmağa bir ehtiyac duyursan. Özünü "ayrılığın qanlı misrası", "iki ölkənin vətəndaşı" sayan və bu minvalla iki taleyi bir ürəkdə birləşdirmək üçün gənclikdən ömrün qışına yol gələn S.Tahir üzünü Araz boyu tutaraq demişdir:

Araz şah misramdır, Təbriz poemam,
Tale kitabımı oxu bu yerdə.
Biz ki, bu torpaqdan, bir taledəndik,
Daha nə gərəkdir sorğu bu yerdə.

Oxucularına həmişə deməyə sözü olan, şeirlərini gözəllikdən, oddan yoğuran, köhnə şeirimizdə təzə üsyan başlayan, "mənə iki tayda bir qəbir tikin" vəsiyyətini yazan, yalançı vədlərdən uzaq ağır taxtalı yaradıcılığı, bəyazlaşmış saçları ilə 90 bahar yaşadı. Arazla baş-başa dayanan qüdrətli söz sərrafının yaradıcılıq nəhri çox sellərin yönünü dəyişdi, qurumuş könüllərə yeni həyat gətirdi.

Sözlə əməl bir olanda, o sözün və əməlin sahibi sevilir, şəxsiyyəti dəyərləndirilir, yazdıqları məlhəm, tutiya kimi cana can, ruha qanad verir, Söhrab Tahir kimi... S.Tahir bir əsrə yaxın, 90 il qələmi ilə xalqa xidmət göstərdi. Dərdləri ilə gəldi dünyaya, həsrəti ilə də getdi bu dünyadan. Bitməyən vətən sevdası ilə. Bəlkə də bu dərdlər idi onu şair edən. Güney dərdi, Araz ağrısı, doğma yurd nisgili ilə şair oldu S.Tahir. Ölümünün sonunacan qələmə sarınan şair ölümü ilə ölümsüzlük gətirdi, ədəbi yaşayacağını bildiyi üçün. Xalq şairi Söhrab Tahirin əziz xatirəsi onun tanıyanların qəlbində həmişə yaşayacaqdır. Yerin uçmaq, məkanın cənnət olsun şair!..

Xalq şairi Söhrab Tahirin əziz Xatirəsi onun tanıyanların, sevənlərin qəlbində həmişə yaşayacaqdır.

Kişi inadıyla yaşadın ömrü,
Qız-gəlin misallı ismətin oldu.
Qorxardın çöpü də iki bölməyə,
İkiyə bölünmək qismətin oldu.[1]

***Sərvaz Hüseynoğlu***
***Aynur Turan***

[1] https://www.turkustan.az/news/media-project/12528
https://www.turkustan.az/news/media-project/125798